# AZƏRBAYCANDA KEÇID ƏDALƏTI: KEÇMIŞLƏ HESABLAŞMA[1]

**Selcan Məmmədli**

1991-ci ildə Sovet İttifaqından ayrıldıqdan və müstəqillik qazandıqdan sonra Azərbaycanda Keçid Ədaləti əsasən keçmiş kommunist rejimində baş verən qanlı olayları bağışlamaq və unutmaq istiqamətində olub. Qeyd edək ki, Baltikyanı ölkələr Estoniya, Litva və Latviya istisna olmaqla, yerdə qalan keçmiş SSRİ ölkələri keçmişlə hesablaşmada əsasən eyni məzmunlu siyasət yolu seçib.[2] Azərbaycanın "bağışlamaq və unutmaq" siyasi xətti bir sıra səbəblərdən, xüsusilə də kommunist rejiminin təbiətindən, müstəqilliyin ilk illərindəki siyasi qeyri-sabitlikdən, siyasi iradənin olmaması və ya zəif olmasından, eləcə də Azərbaycanla Ermənistan arasında davam edən Dağlıq Qarabağ münaqişəsindən irəli gəlirdi.

## REPRESSİYALI KEÇMİŞ

Keçmiş sovet ölkəsi olan Azərbaycan öz müstəqilliyini 1991-ci il 18 oktyabrda elan etdi. Qısaca olaraq Sovet İttifaqı adlandırılan SSRİ mövcud olduğu 1922-1991-ci illərdə 293 milyon əhali və 200-dən çox etnik qrup olmaqla 15 respublikanı (Azərbaycan, Gürcüstan, Ermənistan, Rusiya, Moldova, Estoniya, Latviya, Litva, Belorusiya, Ukrayna, Türkmənistan, Qazaxıstan, Tacikistan,

---

[1] "Keçid Ədaləti" (ingilis dilində "Transitional Justice") adlanan bu sahə müstəqillik qazanan və ya münaqişədən çıxan ölkələrin köhnə rejimlə hesablaşmasının metodlarını öyrənir. Beynəlxalq hüququn yeni bir sahəsi olmaqla, əsasən beynəlxalq insan hüquqları və beynəlxalq humanitar hüququn elementlərini özündə əks etdirir. Bu metodlar köhnə rejim qurbanlarının dörd əsas hüququnun təmin olunmasından və bu sahədə dövlətlərin qarşılıqlı vəzifələrindən ibarətdir:

1) Ədalət hüququ (dövlətin müqəssirləri mühakimə etmək vəzifəsi);

2) Həqiqət hüququ (dövlətin həqiqəti axtarmaq və qurbanları, eləcə də geniş anlamda cəmiyyəti vahid həqiqət barədə məlumatlandırmaq vəzifəsi);

3) Pozuntuların yenidən təkrarlanmasından təminat hüququ (dövlətin baş vermiş pozuntuların yenidən təkrarlanmaması üçün zəruri tədbirlər (məsələn, lüstrasiya) görmək vəzifəsi);

4) Reparasiya hüququ (dövlətin qurbanlara kompensasiya verilməsini təmin etmək vəzifəsi).

"Keçid Ədaləti" siyasətinin ana xəttini ədalətin bərqərar olunması, cəzasızlıq siyasətinə son qoyulması və demokratik idarəçilik, insan hüquqları və hüququn aliliyinin təmin olunması təşkil edir.

Bu sahə barədə daha ətraflı bilgini "Keçid Ədaləti üzrə Beynəlxalq Mərkəz"in (International Center for Transitional Justice) səhifəsindən (www.ictj.org) əldə etmək olar.

[2] Lavinia Stan, Transitional Justice in Eastern Europe and the former Soviet Union: Reckoning with the Communist Past, London, 2008

Qırğızıstan və Özbəkistan) birləşdirib. Hökumətin siyasəti yeganə siyasi partiya olan Sovet İttifaqı Kommunist Partiyası tərəfindən müəyyən edilirdi. Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK və ya rus dilində "Комитет Государственной Безопасности"- "КГБ") bütün ittifaq ərazisində 2.9 milyon gizli əməkdaş şəbəkəsi fəaliyyət göstərirdi. Terror, kütləvi deportasiyalar, məcburi əmək, həbs düşərgələri, işgəncə, qətllər, rusifikasiya (rus dilinin, kimliyinin və mədəniyyətinin məcburən yayılması) sovet rejiminin xarakterik xüsusiyyətləri idi. Onun qurbanlarının dəqiq sayı bilinməsə də, araşdırmalara görə, tarixin ən qanlı rejimlərindən sayılan sovet rejiminin 20 milyon civarında günahsız qurbanı olması ehtimal edilir.[3] Məlumatlara görə, SSRİ dövründə ümumilikdə 3,77 milyon nəfər Stalin repressiyasının qurbanı olub. Onlardan təxminən 500.000-i güllələnib, digərləri isə 25 il müddətinə qədər azadlıqdan məhrum edilib.[4]

Azərbaycan 1920-1991-ci illər arasında 70 ildən artıq müddətdə sovet işğalı altında olub. Azərbaycandakı repressiya qurbanlarının dəqiq sayını bilmək mümkün deyil. Çünki sənədlərin əksəriyyəti ya məhv edilib, ya arxivlərdə gizli saxlanılıb, ya da Moskvaya aparılıb. Nəticədə on minlərlə azərbaycanlının adı repressiya qurbanları siyahısına salınmayıb.[5] Təkcə 1937-38-ci illərdə Azərbaycanda saxta ittihamlarla 40.000 insan məsuliyyətə cəlb edilib. 1937-40-cı illərdə isə hər il orta hesabla 12.000 nəfər həbs olunub. Ümumilikdə, 1930-40 və 50-ci illərin əvvəllərində 70.000 insan repressiya edilib ki, bunun da 29.000 nəfəri ziyalılardır.[6] Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilib.[7] Ən azı bir xarici dil bilən insan öldürülürdü ki, ziyallı təbəqə məhv edilsin. Onlar hamısı "xalq düşməni" elan olunur və hər birinə məhkəmədə cəmi 15 dəqiqə vaxt ayrılmaqla kütləvi şəkildə məhv edilirdi.[8] Bundan başqa, həmin illərdə çoxlu sayda azərbaycanlı Orta Asiyaya, Sibirə, Rusiyanın ucqar yerlərinə "bolşevizmin düşməni" adı ilə sürgün edilirdi. Azərbaycanın Qazaxıstandakı səfirliyinin məlumatına görə, Stalin repressiyaları illərində Qazaxıstanda 150.000 azərbaycanlı öldürülüb, bunlardan 28.000 nəfəri isə məhkəmə və istintaq olmadan güllələnib.[9]

Son qəddarlıqlar 1990-cı il yanvarın 20-də (tarixə "Qara Yanvar" adı ilə daxil oldu) baş verdi. Həmin gün təxminən 26.000 sovet hərbçisi azadlıq hərəkatını boğmaq üçün Azərbaycana silahlı

---

[3] "The Black Book of Communism", bu linkdə: http://en.wikipedia.org/wiki/The_Black_Book_of_Communism
[4] "Qazaxıstanda 150 min azərbaycanlı- Stalin repressiyası qurbanlarının xatirəsinə abidə ucaldılıb" yazısı http://www.gunaz.tv/aze/37/newsCat/1/newsID/2712
[5] Tarixçi Eldar İsmayılovun məqaləsi, "525-ci qəzet", 31 may 2008-ci il
[6] Cəmil Həsənli, "Ağ ləkələrin qara kölgəsi", Bakı, 1991, səh 140-141
[7] Şəmistan Nəzirli, "Güllələnmiş Azərbaycan generalları", Bakı, 2004, səh 116
[8] Ziya Bünyadov, "Qırmızı Terror", Bakı, 1993, səh 4-5
[9] "Qazaxıstanda 150 min azərbaycanlı- Stalin repressiyası qurbanlarının xatirəsinə abidə ucaldılıb" yazısı http://www.gunaz.tv/aze/37/newsCat/1/newsID/2712

basqın etdi. Nəticədə 130 günahsız insan öldürüldü, 744 mülki şəxs yaralandı və ölkəyə külli miqdarda maddi ziyan dəydi.[10]

1988-1991-ci illər milli azadlıq hərəkatı nəticəsində Azərbaycan 1991-ci il 18 oktyabrda Sovet İttifaqının tərkibindən çıxdı və müstəqillik qazandı. Yeni Konstitusiya Layihəsi üçün Komissiya yaradıldı və 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası referendum yolu ilə qəbul edildi, həmin il noyabrın 27-də də qüvvəyə mindi. Konstitusiyanın 7-ci maddəsində göstərilir ki, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi və unitar respublikadır və dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir. Konstitusiya qəbul olunduqdan sonra isə Azərbaycanda "keçid dövrü" başlandı. Sual yaranır ki, yeni rejim qanlı və ağrılı keçmişi ilə necə hesablaşdı? Keçid Ədalətinin yuxarıda qeyd olunan dörd metodundan necə yararlandı? Kommunist rejimi qurbanlarının ədalət, həqiqət, lüstrasiya və reparasiya hüquqlarının təmin olunması istiqamətində dövlət hansı işləri gördü və hansı işləri görmədi? Bir sözlə, yeni rejim hansı siyasəti seçdi: bağışlayıb unutmaq, yoxsa xatırlayıb cəzalandırmaq?

## ƏDALƏT HÜQUQU

Azərbaycanın Keçid Ədaləti sahəsində keçmiş rejim qurbanlarının ədalət hüquqlarının təmin edilməsi məqsədilə gördüyü işlər təəssüf ki, ürəkaçan deyil. Müstəqillikdən sonra kommunist rejiminin törətdiyi kütləvi repressiya, deportasiya və qətllərə hüquqi qiymət verilməsi və təqsirkarların mühakimə olunması ilə bağlı hər hansı ciddi addım atılmayıb. Yalnız 1990-cı il Qara Yanvar hadisəsinin cinayətkarlarının məsuliyyətə cəlb edilməsinə bir sıra cəhdlər edilsə də, bu günə qədər hər hansı bir səmərəli nəticə əldə olunmayıb.

Qara Yanvar hadisəsindən dərhal sonra Azərbaycanda Parlamentin nəzarəti altında deputat-istintaq komissiyası yaradıldı. Qara Yanvar hadisələrinin təhqiqatı ilə məşğul olan bu komissiyanın fəaliyyəti dövründə 2500-dən çox insan dindirildi, ekspertiza keçirildi və hadisənin detalları barədə materiallar toplanıldı.[11] 1994-cü il martın 29-da Milli Məclisin Qərarı ilə 20 Yanvar hadisəsi Azərbaycanın azadlıq hərəkatının qarşısını almağa yönəldilmiş cinayət hadisəsi kimi tanındı və Prokurorluğa istintaq aparılması və cinayətkarların məsuliyyətə cəlb olunması tapşırığı verildi.[12]

---

[10] http://www.january20.net/
[11] Komissiyanın hesabatı üçün bax: http://e-qanun.az/print.php?internal=view&target=1&docid=6927&doctype=0
[12] AR Milli Məclisinin qeyd edilən Qərarına burada baxmaq olar: http://e-qanun.az/print.php?internal=view&target=1&docid=8820&doctype=0

Buna baxmayaraq, cinayət işi bu günədək açıq olaraq qalır. Baş Prokurorluğun mətbuat xidmətinin məlumatına görə, Azərbaycan Rusiyaya rəsmi sorğu göndərərək, bu cinayət işinə dair lazımı materialların qaytarılmasını və Rusiyada gizlənən cinayətkarların tapılması üçün istintaq aparılmasını istəsə də, Rusiya bu məsələ ilə bağlı sorğunu hələ də cavabsız qoyur.[13]

Bundan başqa, Qara Yanvar hadisələri zamanı əlil olmuş şəxsin ərizəsi ilə Sovet İttifaqının hüquqi varisi olan Rusiyadan kompensasiya tələbi üzrə açılmış məhkəmə işi də var. Milli məhkəmələr "əsassız" adı ilə ərizəçinin əleyhinə qərar qəbul etdiyindən, indi bu şikayət Avropa Məhkəməsinə göndərilib.[14]

## HƏQİQƏTİ BİLMƏK HÜQUQU

Azərbaycanda həqiqətin araşdırılması təcrübəsi çox məhduddur. Belə ki, kommunist dövründə insan hüquqlarının pozulmasında təqsirkarların müəyyən edilməsi və qanlı keçmişə dair ümumi bir qiymətləndirmənin- ümumi həqiqətin aşkara çıxarılması üçün həqiqət komissiyaları və yaxud səmərəli nəticə verən təhqiqat komissiyaları yaradılmayıb. Bu passivlik bir sıra səbəblərdən baş verib:

1) Hökumət keçmişi yenidən vərəqləməyə kifayət qədər maraq göstərməyib;

2) Dağlıq Qarabağ müharibəsi ölkəni əldən saldığından, bütün ictimai diqqət o zaman bu yeni münaqişəyə yönəldilmişdi;[15]

3) Baltikyanı ölkələrdə olduğu kimi, DTK-nın sənədləri ("KQB" arxivləri) ictimaiyyət üçün açılmadığından, onların bir qismi Moskvaya göndərildiyindən, bir qismi isə Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanıldığından və ya məhv olduğundan, yeni siyasi rejim keçmiş hadisələrə dair ümumi həqiqətin müəyyən edilməsi istiqamətində hər hansı cəhd etməyib.

---

[13] "Zerkalo" qəzeti, "20 Yanvar hadisəsində təqsirli bilinən şəxslər beynəlxalq axtarışa verilmişdir" yazısı: http://zerkalo.az/rubric.php?id=39041&dd=20&mo=1&yr=2009
Bax həmçinin: Rusiya 20 Yanvar faciəsi ilə bağlı cinayət işinin materiallarını Azərbaycana qaytarmır: http://www.anspress.com/index.php?a=2&lng=az&nid=23018

[14] 20 Yanvar əlili Rusiyanı məhkəməyə verir. Burada baxmaq olar: http://www.azadliq.org/archive/news/20060120/1/1.html?id=154904

[15] Dağlıq Qarabağ müharibəsi 1988-ci ildə Ermənistanla Azərbaycan arasında tarixən Azərbaycan ərazisi olmuş Dağlıq Qarabağ uğrunda başlayıb. Altı il davam edən müharibə nəticəsində Azərbaycan ərazisinin 20%-ni təşkil edən Dağlıq Qarabağ və onun ətrafındakı altı rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Azərbaycan bu illərdə 30.000-dən çox insan itkisi verib və təqribən 1 milyona yaxın məcburi köçkün qazanıb. 1994-cü ilin mayında atəşkəs haqqında razılaşma imzalanıb. Hazırda bü münaqişə dondurulmuş münaqişə hesab edilir və Azərbaycan və Ermənistan hökumətləri ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə onu danışıqlar yolu ilə həll etmək istiqamətində mütəmadi görüşlər keçirirlər. Qeyd olunmalıdır ki, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul edib. Eləcə də, Avropa Şurası və ABŞ Dövlət Departamentinin hesabatlarında Azərbaycanın ərazi bütövlüyü tanınır və Ermənistan silahlı qüvvələrindən Dağlıq Qarabağ və onun ətrafındakı rayonları tərk etmək açıq şəkildə tələb olunur.

Bununla belə qeyd edilməlidir ki, Azərbaycan tarixçiləri və elmi ictimaiyyət tərəfindən sovet dövrünün qəddarlıqları araşdırılıb, bir sıra kitablar dərc olunub və dərc olunmaqda davam edir.[16] Televiziya və radio yayımları, həmçinin mətbuat da həqiqətin araşdırılmasında müəyyən rol oynayıb. Eyni zamanda "Siyasi Repressiya Qurbanları Assosiasiyası" adlı ictimai qurumun yaradılmasını da təqdirəlayiq hesab etmək olar. Qurum hazırda repressiya qurbanlarının tam siyahısını özündə əks etdirən xatirə kitabının dərc olunması və qurbanlara müvafiq güzəştlərin (nəqliyyat, kommunal, tibbi və s.) verilməsi istiqamətində çalışır.[17] Qurbanlar barədə məlumat və onların tam olmayan siyahısı isə bir sıra mənbələrdə açıqlanıb.[18] Onu da qeyd edək ki, Azərbaycanda bu günə qədər Qazaxıstana deportasiya olunanlar da daxil olmaqla, 345.000-dən çox qanunsuz repressiya qurbanına bəraət verilib və arxiv materiallarının öyrənilməsi üzrə işlər hazırda davam etdirilir.[19]

**LÜSTRASİYA**

Azərbaycan kommunist keçmişinə aydın bir nöqtə qoymadığından, müstəqillikdən sonra idarəetmədə olan yeni siyasi liderlər keçmiş kommunist rəsmilərini və DTK agentlərini müəyyən etmək, onları bu və ya digər müddətə post-kommunist siyasətindən uzaqlaşdırmaq istiqamətində lüstrasiya (təmizləmə) qanununun qəbul olunmasına siyasi iradə göstərmədi. Qeyd edək ki, lüstrasiya qanunları qəbul edilən ölkələrdə keçmiş rejimlə əməkdaşlıq edən şəxslər müəyyən olunur, onlara müəyyən müddət və ya müddətsiz ictimai-siyasi həyatda iştirak etməyə qadağan qoyulur ki, məqsəd də keçmiş rejim qurbanlarının hüquqlarının bərpasıdır. Lüstrasiya qanunları Baltikyanı ölkələrdə qəbul olunsa da, keçmiş sovet ölkələrindən Moldovada (2000), Ukraynada (2005) və Gürcüstanda (2005) bununla bağlı qanun layihələri parlamentdə səsvermədən keçmədi.[20] Azərbaycanda bu məsələ Parlamentə çıxarılmasa da, son zamanlar müəyyən qədər ictimai müzakirə predmetinə çevrilməkdədir.[21]

---

[16] "Ekspress" qəzeti, "Azərbaycanda Stalin repressiyasının qurbanları- Fəridə Cahannurinin yeni kitabı işıq üzü gördü" yazısı: http://www.ekspress.az/2010/05/22/get=12685
[17] http://www.dak.az/view.php?lang=az&menu=16&id=5285
[18] http://www.adam.az/az.php?category=71
Bax həmçinin: http://az.wikipedia.org/wiki/Kateqoriya:Repressiya_qurbanlar%C4%B1
[19] "Qazaxıstanda 150 min azərbaycanlı- Stalin repressiyası qurbanlarının xatirəsinə abidə ucaldılıb" yazısı http://www.gunaz.tv/aze/37/newsCat/1/newsID/2712
[20] Lavinia Stan, Transitional Justice in Eastern Europe and the former Soviet Union: Reckoning with the Communist Past, London, 2008, s. 237-239
Həmçinin bax: Dealing with the past: The case of Estonia, available at: http://www.isn.ethz.ch/isn/Digital-Library/Publications/Detail/?ord516=OrgaGrp&ots591=0C54E3B3-1E9C-BE1E-2C24-A6A8C7060233&lng=en&id=18990
[21] AR Milli Məclisin bir sıra deputatları ilə söhbətlər və "Bakı Xəbər" qəzetindəki yazı: http://baki-xeber.com/new/2010/08/26/get=48396

Azərbaycanda Keçid Ədaləti metodu kimi lüstrasiya metodunun tətbiq olunmamasının səbəbləri belə ümumiləşdirilə bilər:

- **Siyasi iradənin olmaması**: Azərbaycan dövləti müstəqillik əldə olunandan sonrakı 19 il ərzində lüstrasiyaya heç bir real maraq göstərməyib. DTK-nın topladığı sənədlərə ictimaiyyətin çıxışı təmin olunmadığından, keçmiş rejimlə əməkdaşlıq edən şəxslərin adı, fəaliyyəti qapalı saxlanılıb, onlar barəsində heç bir tədbir görülməyib. Nəticədə dövlət idarəetmə orqanlarında və ölkənin ictimai-siyasi həyatında onların iştirakı davam etməkdədir.
- **Məcburi üzvlük:** Lüstrasiya qanununun qəbul olunmamasına digər bir səbəb isə kommunist rejiminin Azərbaycanda çox güclü olması və az qala hər bir kəsin partiya üzvü olması tələbi idi. Məsələn, belə bir deyim var idi: "Hər bir kəs kommunist doğulur." Təbii ki, kommunizmə həqiqətən inananlar da az deyildi, amma insanların əksəriyyəti, xüsusən də ziyalılar Kommunist Partiyasına üzv olmağa, şairlər və yazıçılar öz əsərlərində kommunist rejimini tərənnüm etməyə məcbur edilirdi. Odur ki, lüstrasiyanın tətbiqi əslində repressiv rejimin məcburi qurbanı olan minlərlə insana da mənfi təsir edə bilərdi.
- **Dağlıq Qarabağ müharibəsi:** Yuxarıda qeyd olunduğu kimi, bütün diqqət bu müharibəyə yönəlmişdi və torpaqların işğalı Keçid Ədaləti sahəsində edilən cəhdlərə ciddi maneə idi.[22]
- **Siyasi qeyri-sabitlik:** Lüstrasiya metodunun tətbiq olunmamasının digər səbəbi müstəqilliyin ilk illərində davam edən müharibə və qeyri-stabillik üzündən mərkəzi hakimiyyətin zəif olması və qiyamçıların fəallığı idi. Lüstrasiya siyasətinin tətbiqi vəziyyəti daha da gərginləşdirə və cəmiyyəti parçalaya bilərdi.

Beləliklə, Azərbaycan adı çəkilən səbəblərdən Keçid Ədalətinin lüstrasiya metodundan tamamilə yararlanmayıb və kommunist partiyasının bir çox üzvləri, keçmiş DTK agentləri hazırda da dövlət idarəçiliyində təmsil olunmaqda davam edir.

## REPARASİYA HÜQUQU

Azərbaycan dövləti Keçid Ədaləti metodlarından biri olan reparasiyanı qismən tətbiq edib. 1991-ci il noyabrın 6-da Milli Məclis "Azərbaycan Respublikası məhkəmələri tərəfindən müsadirə edilmiş və alınmış yaşayış evlərinin amnistiya qaydasında qaytarılması haqqında" Qanun qəbul etdi. Qanunun birinci maddəsinə görə, müsadirə edilmiş müvafiq evlər əvəzsiz olaraq onların sahiblərinə və ya onlarla birgə yaşayan ailə üzvlərinə qaytarılmalıdır. Digər tərəfdən isə həmin qanunun ikinci

[22] Lavinia Stan, Transitional Justice in Eastern Europe and the former Soviet Union: Reckoning with the Communist Past, London, 2008, p. 240

maddəsi müəyyən edir ki, satılmış, habelə yaşayış sahəsi kirayə müqaviləsi üzrə qanunla müəyyən edilmiş qaydada başqa şəxslərə verilmiş evlər qaytarılmamalıdır və beləliklə, birinci iki maddə arasında ziddiyyət yaranır.[23] Təcrübə göstərir ki, sovet işğalı dövründə evləri kommunist rejimi tərəfindən müsadirə olunmuş bir çox mülkiyyətçilər öz evlərini geriyə ala bilmədilər, çünki orada artıq yeni mülkiyyətçilər məskunlaşıb. Məhkəmələr qanunun restitusiyanı mümkünsüz edən ikinci maddəsinə istinadən sahiblərin yeni mülkiyyətçilərə qarşı etdikləri şikayətləri bir qayda olaraq təmin etmirlər. Belə nəticəyə gəlmək olar ki, mülkiyyətin restitusiyası Azərbaycan dövləti tərəfindən həll edilməmiş qalmaqda davam edir. Buna görə də, Restitusiya haqqında yeni qanunun qəbul edilməsi və kommunist rejiminin minlərlə qurbanının mülkiyyət hüquqlarının bərpası üçün ciddi ictimai tələbat var.

Qeyd edilməlidir ki, Azərbaycanda reparasiyanın inzibati kompensasiya və digər rəmzi tədbirləri qismən həyata keçirilib. Yuxarıda adı çəkilən 1990-cı il Qara Yanvar hadisəsinə dair 1998-ci il Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib.[24] Əlavə olaraq, 2006-cı il yanvarın 19-da növbəti Fərmanla 20 Yanvar şəhidlərinin ailə üzvlərinə aylıq 300 AZN məbləğində "Prezident təqaüdü" təyin edilib.[25]

Bundan başqa, Azərbaycanda 20 Yanvarın milli matəm günü elan olunması, hər ilin müvafiq gününün orta təhsil müəssisələrində həmin günə həsr olunması, metro stansiyalarından birinə "20 Yanvar" adının verilməsi, Şəhidlər Xiyabanının, milli memorial və Şəhidlər Məscidinin ucaldılması və müxtəlif dillərdə çoxlu kitabların nəşr edilməsi kimi rəmzi reparasiya tədbirləri həyata keçirilib.

Azərbaycanda inzibati reparasiya ancaq 20 Yanvar qurbanlarına tətbiq olunur. Sovet işğalının digər qurbanlarına isə bu, şamil olunmur. Hüquqi reparasiyaya gəldikdə, qanundakı ziddiyyətlər üzündən qurbanlara mülkiyyətlərinin qaytarılması bugünədək mümkünsüz olaraq qalır. Bununla belə, bir sıra rəmzi reparasiya tədbirləri həyata keçirilib: Sovet küçə və digər qurum adları dəyişdirilib, heykəllər dağıdılıb, rusdilli məktəblərin sayı azaldılıb, "Rusiya tarixi"nin məktəblərdə ayrıca fənn kimi tədris olunmasına son qoyulub və s. milliləşdirmə tədbirləri həyata keçirilib və bu iş davam etməkdədir.

---

[23] Həmin Qanuna burada baxmaq olar: http://e-qanun.az/print.php?internal=view&target=1&docid=6698&doctype=0
[24] Həmin Fərmana burada baxmaq olar: http://e-qanun.az/print.php?internal=view&target=1&docid=4690&doctype=0
[25] Həmin Fərmana burada baxmaq olar: http://e-qanun.az/print.php?internal=view&target=1&docid=11356&doctype=0

## NƏTİCƏ

Araşdırma nəticəsində bu qənaətə gəlirik ki, Azərbaycan Keçid Ədalətini ancaq məhdud şəkildə həyata keçirib, başqa sözlə desək, Azərbaycanın kommunist keçmişində baş verən hüquq pozuntularına münasibəti daha çox "unutmaq və bağışlamaq" yönümlüdür. Gördüyümüz kimi, müstəqillik qazandıqdan sonra Azərbaycan kütləvi repressiya, deportasiya, qətl və digər qanunsuz əməllərdə təqsirkar olan şəxslərin müəyyən edilməsi və mühakimə edilməsi siyasəti yürütməyib. Həqiqətin müəyyən olunması istiqamətində hər hansı həqiqət və ya təhqiqat komissiyası yaradılmayıb və nəticədə həqiqətin araşdırılması əsasən müxtəlif kitabların nəşri, tarixçilərin müxtəlif fikirləri və media məlumatları ilə məhdudlaşıb. Bundan əlavə, DTK arxiv sənədləri ictimaiyyət üçün açılmadığından, heç bir lüstrasiya həyata keçirilməyib, əvəzində kommunist keçmişli şəxslər yenidən dövlət idarəçiliyində təmsil olunmaqda davam edib. Reparasiyaya gəldikdə müəyyən etdik ki, Qanundakı ziddiyyət, eləcə də digər müvafiq qanunvericilik aktlarının olmaması qurbanların reparasiya hüquqlarını təmin etməyə imkan verməyib. Yeganə reparasiya 20 Yanvar hadisələrinin qurbanlarının ailə üzvlərinə verilən aylıq kompensasiyadır. Digər əməllərlə bağlı isə hər hansı reparativ tədbir həyata keçirilməyib.

Baltikyanı ölkələrdən fərqli olaraq, Azərbaycanda Keçid Ədalətinin metodlarının məhdud həyata keçirilməsi bir sıra səbəblərlə bağlıdır: Müstəqillikdən sonrakı gərgin daxili vəziyyət, yeni itkilər və digər qəddarlıqlarla müşayiət olunan Dağlıq Qarabağ müharibəsinin köhnə sovet işğalını unutdurması, mövcud siyasi rejimin keçmişlə hesablaşmağa marağının yetərincə olmaması, keçmişdəki hüquq pozuntuları ilə ciddi məşğul olmağın Rusiya ilə, eləcə də regionda münasibətləri gərginləşdirməsi, ümumiyyətlə, cəmiyyətdə gərginliyin və parçalanmanın yarana bilməsi ehtimalı və s. Bütün bu kimi səbəblərdən, qanlı və ağrılı kommunist keçmişindəki çoxsaylı insan tələfatı və maddi itkilərə baxmayaraq, Azərbaycanın yeni siyasi rejimi Keçid Ədaləti metodlarını məhdud şəkildə tətbiq etmək və əsasən siyasi yaddaşı silməklə, keçmişi unutmaq və bağışlamaq, bununla da yeni gələcək qurmaq yolunu seçib.

Amma tarix göstərir ki, keçmişi ilə hesablaşmadan uğurlu gələcək qurmaq da mümkün deyil. Buna görə də, Azərbaycan 70 illik müstəmləkə tarixini bir daha vərəqləməli və siyasi repressiya qurbanlarının pozulmuş hüquqlarının bərpası istiqamətində zəruri tədbirlər həyata keçirməlidir. Bunların arasında repressiya qurbanlarının və onların ailə üzvlərinin mülkiyyət hüquqlarının təmin

olunması, müsadirə olunmuş evlərin geri qaytarılması və ya müvafiq kompensasiyanın ödənilməsi, eləcə də qurbanların müvafiq güzəştlərlə təminatı istiqamətində tədbirlər önəmli yer tutur. Bundan başqa, DTK arxivlərinin açılması və ictimaiyyətin onlarla tanış olması təmin edilməlidir. Lüstrasiya haqqında Qanunun qəbulu öz növbəsində cəmiyyətin həqiqəti bilmək hüququnun təmin olunması istiqamətində mühüm addımdır. Siyasi Repressiya Qurbanlarının Hüquqlarının Müdafiəsi ilə bağlı mərkəzləşdirilmiş dövlət qurumu yaradılmalı və bu sahədə fəaliyyət göstərən Siyasi Repressiya Qurbanları Assosiasiyası ilə səmərəli əməkdaşlıq aparılmalıdır. Eyni zamanda, vətəndaş cəmiyyəti və medianın Keçid Ədalətinin təmin olunması istiqamətində rolu danılmazdır. Bu sahədə maarifləndirici tədbirlər həyata keçirilməli və media bu sahəni müntəzəm olaraq işıqlandırmalıdır. Qeyd edilən tədbirlərin kompleks şəkildə həyata keçirilməsi Azərbaycanın həm müəyyən mənada keçmişlə hesablaşması, həm də gələcəyinin təminatı olardı.